# Yeni Azərbaycan Partiyası böyük və şərəfli yollarda

(Əvvəli 2-ci səhifədə).

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin çıxışı

Cari tədris ilində Nic qəsəbəsində və Tövlə kəndində tam orta, Solquca kəndində ibtidai və Topbağ kəndində yeni ümumi orta məktəb binaları tikilərək məktəblilərin istifadəsinə verilmiş, Vəndam qəsəbəsində 1 saylı tam orta məktəb əsaslı təmir olunmuş, Bum qəsəbəsində 25 yerlik uşaq bağçası inşa edilmişdir. Hazırda Bum qəsəbəsində stend və ox atıcılığı mərkəzinin, «Qəbələ Konqres Mərkəzi»nin, «Karvansaray» otel kompleksinin, «Tufandağ» xizək yay-qış istirahət kompleksinin, Qəbələ—Küsnət—Laza avtomobil yolunun və həmin yolda Dəmiraparan çayı üzərində körpülərin, Qəbələ Cıdır Kompleksinin, Yengicə kəndində istisu sağlamlıq mərkəzinin yeni korpusunun, futbol akademiyasının, "Qəbələ-Beynəlxalq Hava Limanı" avtomobil yolunun tikintisi davam etdirilir. Həmçinin Qəbələ şəhərinin küçələrində abadlıq-quruculuq və yenidənqurma işləri genişləndirilir.



Bu il həm də xalqımız və dövlətimiz üçün mühim bir siyasi kompaniya olan Prezident seçkiləri ili kimi yadda qalacaq. Əminəm ki, Azərbaycan xalqı bu seçkilərdə böyük inamla ölkəmizi uğurlu sabahlara aparan ən layiqli namizədə səs verəcəkdir.

Biz bu gün bir daha qətiyyətlə bəyan edirik ki, müstəqil Azərbaycanın siyasi gələcəyi məhz Yeni Azərbaycan Partiyası ilə bağlıdır. Qürur duyuruq ki, bu gün Yeni Azərbaycan Partiyası siyasi varislik missiyasını öz çiyinlərinə götürən, Heydər Əliyev siyasi kursunu böyük uğurla həyata keçirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev kimi güclü və uzaqgörən liderə malikdir. Bu, bir daha təsdiq edir ki, Azərbaycanın gələcək siyasi taleyi Yeni Azərbaycan Partiyasından ayrılmazdır.

Hörmətli siyasi həmfikirlər!

Mən Yeni Azərbaycan Partiyası rayon təşkilatının VIII konfransının işinə uğurlar arzulayır, təşkilatın bütün üzvlərini və təəssübkeşlərini daha sıx birləşməyə çağırıram.

**Yaşasın dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası!**

## YAP Qəbələ Rayon Təşkilatının hesabat məruzəsi

**Hörmətli konfrans iştirakçıları!**

**Hörmətli siyasi həmfikirlər!**

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının bu günkü konfransı çox əlamətdar bir dövrə təsadüf edir. Partiyamızın yaradıcısı, ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsinin 20 illiyinin böyük bayram əhval-ruhiyyəsi ilə qeyd olunduğu bir vaxtda keçirilir.

Yeni Azərbaycan Partiyasının IV qurultayından keçən 5 il və Qəbələ rayon təşkilatının VIII konfransından sonrakı dövrdə rayonumuzun hər bir sahəsində uğurlu illər olduğu kimi, partiyanın Qəbələ Rayon Təşkilatının fəaliyyəti də uğurlu olmuşdur.

Ulu öndər Heydər Əliyev vaxtilə demişdir: «Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranmış partiyadır. Partiyamızın keçdiyi yolun əzəmətini, böyüklüyünü dərk etmək üçün hər zaman onun yaranma şəraitini və zamanını yada salmaq, xatırlamaq vacibdir».

Müstəqilliyimizin ilk illərində respublikamızda hakimiyyət boşluğu yaranmış, anarxiya,özbaşınalıq baş alıb gedirdi.. Hakimiyyətdə olan o vaxtkı müxalifət rəhbərlərinin səriştəsizliyinin nəticəsində ölkədə yaranmış qarşıdurma kəskin xarakter alırdı. Belə ki, vətənimizin ərazi bütövlüyünü qorumaq üçün Milli Ordunun yaradılmasına səy göstərilmirdi, əksinə Milli Ordunun yaranmasına açıq-aşkar mane olurdular. Ölkədə hökm sürən qarşıdurmadan istifadə edən erməni təcavüzkarları torpaqlarımızı işğal edir, dinc sakinləri kütləvi şəkildə qırır, əsir və girovlara olmazın əzab-əziyyətini verirdilər. Gənclərimiz siyasi oyunların qurbanına çevrilir, iqtisadiyyat dağıdılırdı. Respublikada qaçqınlar ordusu yaradılır, insanlar sözün həqiqi mənasında çörəklə imtahana çəkilirdi. Artıq Azərbaycan xalqının o vaxtı hakimiyyətdə olanların heç birinə inamı qalmamışdı. Bütün bu münasibətlərdən birdəfəlik qurtarmaq üçün xalqın yeganə ümidi möhtərəm Heydər Əliyevə idi.

1992-ci ilin payızında Azərbaycanda əslində hakimiyyətsizlik olan vaxtlarda xalqın gələcəyini düşünən 91 nəfər görkəmli Azərbaycan ziyalısı, elm və mədəniyyət xadimi xalqımızın böyük oğlu Heydər Əliyevə müraciət edərək ondan Azərbaycanı düşdüyü fəlakətlərdən qurtara biləcək bir siyasi təşkilatın yaradılmasına və ona rəhbərlik etməsinə razılıq verməsini xahiş etdilər.

Xalqın dahi rəhbəri vətənin bu ağır günündə ona bəslənən böyük inamı və ehtibarı puça çıxarmadı. Əksinə vətən qarşısında, xalq qarşısında öz tarixi borcunu uzaqgörənliklə dəyərləndirərək Azərbaycanın tarixində böyük siyasi rol oynayacaq partiyanın—Yeni Azərbaycan Partiyasının yaranmasına müsbət yanaşmaqla yanaşı, bu partiyanın yaradıcısı və ömrünün sonuna qədər rəhbəri oldu.



Ümummilli liderin hər bir tapşırığının yerlərdə təbliğatçısı olan Yeni Azərbaycan Partiyası ölkədə vətəndaş qarşıdurmasının qarşısının alınmasında öz rəhbərinə elindən gələn köməkliyi etdi. Yeni Azərbaycan Partiyası ölkədə sabitlik, əmin-amanlıq yaradan partiya adını qazandı. O vaxdan keçən 20 ildən bəri xalqımızın ümummilli lideri Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, müstəqilliyinin əbədi və dönməz olması, iqtisadiyyatının surətlə inkişafı, dünya birliyində Azərbaycanın layiqli yer tutması istiqamətində çox böyük işlər görmüşdür.

Aparılmış uğurlu siyasi və iqtisadi islahatlar nəticəsində bu gün ölkəmiz xalqının rifah halını daha da yaxşılaşdırmağa doğru gedən öncül ölkələr sırasındadır. Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev demişdir: «Azərbaycanda bütün insanlar yaxşı yaşamalıdır, bir nəfər də olsun yoxsul olmamalıdır».

Son illər cənab Prezidentin rəhbərliyi ilə respublikamızda, eləcə də rayonumuzda aparılan geniş miqyaslı işlər bu sözlərin reallığa çevrilməsinin məntiqi nəticəsidir. Hazırda ölkəmizin beynəlxalq aləmdə nüfuzu gündən-günə yüksəlir, iqtisadiyyatımızda hərtərəfli inkişafı təmin edilir. Bu inkişafda isə Yeni Azərbaycan Partiyasının da xüsusi payı var.

Yeni Azərbaycan Partiyasının Qəbələ Rayon Təşkilatı öz fəaliyyətini partiyanın Nizamnaməsinə, proqramına, partiyamızın həyatında mühüm hadisə olan qurultaylarının qərarlarına və YAP Mərkəzi Aparatının göstərişlərinə uyğun şəkildə qurur. Rayon təşkilatı 1993-cü ilin 19 sentyabr tarixində yaranmış, ilk günlərdən rayonumuzun və respublikamızın siyasi həyatında fəal mövqe tutmağa çalışmış və ötən illər ərzində xeyli işlər görmüşdür.

Partiyanın rayon təşkilatının VIII konfransının qərarları bütün ilk təşkilatlarda geniş müzakirə olunmuş və bu qərarların icrası istiqamətində müntəzəm olaraq iş aparılır. Ötən dövr ərzində təşkilati işlərlə yanaşı, partiya üzvlərinin boy sırasının artırılmasına da xüsusi diqqət yetirilmişdir. 2012-ci ilin aprel ayında keçirilmiş VIII konfransa qədər partiyanın rayon təşkilatının sıralarında 5000 nəfərə qədər partiya üzvü vardırsa, hazırda üzvlərin sayı 5470 nəfərdən çoxdur. Bu üzvlər 76 ilk partiya təşkilatında birləşir. İlk təşkilatların 22- si idarə və müəssələrdə, 51-i kənd, 3-ü isə qəsəbə ərazi ilk partiya təşkilatlarına daxildir. Partiya sıralarına yeni üzvlər qəbul edilərkən üzvlərin keyfiyyətcə tərkibi ilə yanaşı, gənclərin və qadınların, eləcədə ziyalıların qəbuluna daha çox diqqət yetirilir.

Hələ partiyamızın birinci Qurultayında ulu öndər Heydər Əliyev tövsiyyə etmişdir ki, partiya sıralarına qəbul zamanı gənclərə və qadınlara üstünlük verilməlidir. Rayon təşkilatı ötən bir il ərzində Yeni Azərbaycan Partiyasının sıralarına 470 nəfərdən çox yeni üzvü qəbul etmişdir ki, onların 203 nəfəri qadın, 187 nəfəri gənclərdir. Beləliklə, VIII konfransdan əvvəl rayon təşkilatının tərkibində qadınların sayı 39 faiz, gənclərin sayı 37 faiz təşkil edirdisə, indi müvafiq olaraq qadınların sayı 2259 nəfər, yəni 41 faiz, gənclərin sayı isə 2113 nəfər olmaqla 39 faizə qədər təşkil edir. Çox fərəhli haldır ki, partiya sıralarına qəbul olanların əksəriyyəti ali təhsilli ziyalılardan ibarətdir. Rayonumuzda fəaliyyət göstərən özəl müəssisələrin işçiləri arasında son illər partiya sıralarına qəbul olanların sayı xüsusilə çoxalmışdır.

Ötən konfransdan sonrakı dövrdə YAP qadınlar şurasının və gənclər birliyinin işi xeyli fəallaşmışdır. Gənclərimiz Partiyamızın ən fəal köməkçisinə çevrilmişdir. Gənclərin asudə vaxtının səmərəli təşkili üçün gənclər arasında idman yarışları keçirir, disbut və "dəyirmi masa"lar təşkil olunur. Rayon təşkilatı Mərkəzi Aparatın bir neçə ildir ki, təşkil etdiyi gənclərin yay və qış məktəblərində rayonumuzun gənclərinin fəal iştirakını təmin edir. YAP rayon təşkilatı gənclərlə yanaşı qadınlar şurasının da işinin daha da canlandırılmasına xüsusi diqqət yetirir. Belə ki, qadınlarla bağlı bayramlar qeyd olunur, qadınların partiyamızla sıx əlaqələrinin yaradılması üçün vaxtaşırı müxtəlif mövzularda görüşlər keçirilir, onların siyasi fəallıqlarının artırılmasına diqqət yetirilir.

Yeni Azərbaycan Partiyasının rayon təşkilatı rayonumuzda keçirilən bütün ictimai- siyasi tədbirlərdə yaxından iştirak edir. 2012-ci ilin oktyabr ayında Yeni Azərbaycan Partiyasının yaranmasının 20 illiyi münasibəti ilə böyük yubiley tədbiri təşkil olunmuşdur. Bu ilin aprel və may aylarında partiyamızın yaradıcısı ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubleyi ilə əlaqədar bütün ilk partiya təşkilatlarında və rayon təşkilatında böyük tədbirlər keçirilmişdir. 7 may 2013-cü ildə isə on min nəfərə yaxın insanın iştirakı ilə «Qafqaz Sport» hotelin qarşısındakı meydanda ulu öndərin yubleyinə həsr olunmuş böyük bayram tədbiri keçirilmişdir.

(Ardı 4-cü səhifədə).